

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

29 dekabr 2022-ci il
cümə axşamı

1933-cü ildən çıxır
№ 51 (3614)


# TARİXİ ƏDALƏTSİZLİYİ BƏRPA ETMƏK HƏDƏFİMİZDİR

## *Xalqımıza qarşı törədilən soyqırımları və deportasiyaları dünyanın diqqətinə çatdırırıq*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 24-də Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanış olub və Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşüb.

Görüşdə Qərbi Azərbaycana qayıdışın strateji hədəf olduğunu qətiyyətlə vurğulayan Prezident İlham Əliyev vaxtilə yurdundan deportasiya edilən Qərbi Azərbaycandan olan yüzminlərlə soydaşımızın tarixi torpaqlarına qovuşacaqlarını əminliklə ifadə edib: "Əminəm ki, gün gələcək Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana böyük coşqu və həvəslə qayıdıb orada yaşayacaqlar".

Tarixi mənbələrdən də aydın göründüyü kimi, erməni millətçiləri "dənizdən-dənizə" böyük Ermənistan xülyasına qapılaraq XIX-XX əsrlər boyu Azərbaycan xalqına qarşı etnik təmizləmə, soyqırımı siyasəti yürüdüblər. Mərhələli şəkildə həyata keçirilən məkrli plan nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən - tarixi torpaqlarından qovulub, kütləvi qətl və qırğınlara məruz qalıblar.



Növbəti cinayət ünvanı kimi özlərinə Qarabağı və Şərqi Zəngəzuru hədəf seçən Ermənistan o vaxt Azərbaycanda hakimiyyətdə olan antimilli qüvvələrin xəyanətkar siyasətindən yararlanaraq bu tarixi torpaqlarımızı da işğal etmişdilər, daha yüzminlərlə azərbaycanlını məcburi köçkünə çevirmişdilər.

Bütün bunlarla yetinməyən ermənilər maddi-mədəni irsimizə qarşı da soyqırımı siyasəti həyata keçiriblər, o cümlədən də Qərbi Azərbaycanda. Əzəli torpaqlarımız İrəvana, Zəngəzura, Göyçə mahalında türk dilində mövcud olan yer adlarını dəyişən uydurma erməni adları qoymuş özlərinə saxta tarix yaratmışlar.

Bu il əldə edilən hərbi, siyasi uğurlarımız, böyük qayıdış, təhlükəsizlik, həmçinin Azərbaycanı güclü dövlət kimi qəbul etmək istəməyənlər üçün unudulmayan bir dərs oldu. Və bir daha göstərdi ki, xalqımızı və onun Müzəffər lideri Prezident İlham Əliyevi qarşıya qoyduğu hədəfləri reallaşdırmağı heç kim və heç nə dayandıra bilməz. Bu gün Azərbaycanın bölgədə aparıcı dövlət və söz sahibi, eləcə də sülhün, təhlükəsizliyin təminatçısı olması, eyni zamanda həyata keçirilən bütün irimiqyaslı layihələrin ölkəmizin iştirakı və təşəbbüsü ilə reallaşması da bunu bir daha təsdiqləyir.

Qərbi Azərbaycan İcmasının ziyalıları ilə görüşdə Laçın-Xankəndi yolunda baş verənlərə toxunan dövlətimizin başçısı Ermənistanın və onların xaricdəki havadarlarının növbəti anti-Azərbaycan hərəkatı kampaniyasını başlatdığını, BMT-də bizə qarşı növbəti təxribatın hazırlandığını da diqqətə çatdırıb. Bildirib ki, beynəlxalq birlik tərəfindən tanınmış ərazilərimizdə təbii sərvətlərimiz istismar edilir, daşınır və bunu müdafiə etmək, törədilən özbaşınalıqların dayandırılması, monitorinqlərin keçirilməsi haqlı olaraq bizim legitim hüququmuzdur.

Doğum günündə Qərbi Azərbaycan İcmasının ziyalıları qarşısındakı çıxışı ilə haylara və bütün dünyaya öz yerini göstərən Müzəffər Ali Baş Komandan İlham Əliyev o günün - soydaşlarımızın tezliklə tarixi torpaqlarına qaytarılacağı isməricını verdi və Qayıdış konsepsiyasının hazırlanmasına start verilməsinin yetişdiyini vurğuladı: "...Hesab edirəm ki, biz birgə səylərlə Qərbi Azərbaycana Qayıdış Konsepsiyasını da işləməliyik. Qarabağ münaqişəsi həll olunandan sonra indi bizim gündəliyimizdə duran məsələ budur. Əlbəttə ki, Qarabağ münaqişəsi həll olunmayana qədər bu haqda danışmaq, bəlkə də, tez idi. Ancaq məncə, bu gün biz vaxt itirməməliyik. Qayıdış konsepsiyası hazırlanmalıdır".

## DAXİLİ İŞLƏR ORQANLARININ VƏ DAXİLİ QOŞUNLARIN ŞƏXSİ HEYƏTİNƏ

*Əziz həmkarlar!*

*Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə sizi, həmçinin hörmətli veteranlarımızı, vəzifə borcunu yerinə yetirərkən şəhid və həlak olmuş əməkdaşlarımızın və hərbi qulluqçularımızın ailə üzvlərini ürəkdən təbrik edirəm.*

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən Ulu Öndərin müəyyənləşdirdiyi daxili və xarici siyasət kursunun müvəffəqiyyətlə inkişaf etdirilməsinin və aparılan məqsədyönlü islahatların məntiqi nəticəsi olaraq daxili işlər orqanlarının və Daxili Qoşunların əməliyyat-xidməti fəaliyyəti 2022-ci ildə də təkmilləşmiş, maddi-texniki bazası modernləşmiş, möhkəm nizam-intizama malik şəxsi heyətimiz üzərinə düşən bütün vəzifələrin öhdəsindən əzmlə gəlmişdir. Digər dövlət orqanları ilə qarşılıqlı əməkdaşlıq şəraitində respublikada cinayətkarlığa qarşı mübarizə, qanunçuluğun və hüquq qaydasının təmin edilməsi, işğaldan azad edilmiş ərazilərdə asayişin və təhlükəsizliyin qorunması funksiyaları peşəkarlıqla həyata keçirilmiş, qarşıya qoyulmuş tapşırıqların icrası təmin edilmişdir.*

*Öz andına həmişə sadiq olan şəxsi heyətin əməyi yola saldığımız ildə də yüksək qiymətləndirilmiş,*



*möhtərəm Prezidentin imzaladığı sərəncamlarla xidmətdə fərqlənən polis əməkdaşları və Daxili Qoşunların hərbi qulluqçuları dövlət təltiflərinə layiq görülmüşdür.*

*Əminəm ki, vətəndaşlarımızın qanuni mənafelərinin, insan hüquq və azadlıqlarının müdafiəsi kimi məsul vəzifələrin öhdəsindən bundan sonra da bacarıqla gələcək, ölkə Prezidentinin, Ali Baş Komandanın etimadını doğruldacaqsınız.*

*Hamınıza Azərbaycan Respublikasına xidmətə görə təşəkkür edir, möhkəm cansağlığı, ailə səadəti, xoşbəxtlik, yeni-yeni nailiyyətlər və uğurlar arzulayıram!*

*Vilayət Eyvazov,*
*Azərbaycan Respublikasının daxili işlər naziri,*
*general-polkovnik*

## *Rəsmi xronika*

***Dekabrın 24-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin, İsrail Dövlətinin Prezidenti İsxak Hersoq, Ukraynanın Prezidenti Volodimir Zelenski, Qırğız Respublikasının Prezidenti Sadır Japarov, Gürcüstanın Prezidenti Salome Zurabişvili, İordaniyanın Kralı II Abdullah ibn Al Hüseyn və digər dövlət və hökumət başçıları Azərbaycan Prezidenti İlham Əliyevə doğum günü münasibətilə təbrik məktubları ünvanlayıblar.***

***Dövlətimizin başçısı dekabrın 26-da Azərbaycan musiqi mədəniyyətinin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Fərhad Şəmsi oğlu Bədəlbəylinin "Şərəf" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.***

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə MDB dövlət başçılarının iclasında iştirak etmək üçün dekabrın 26-da Sankt-Peterburq şəhərinə işgüzar səfərə gedib. Həmin gün Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində MDB dövlət başçılarının iclası keçirilib. Prezident İlham Əliyev iclasda iştirak edib. Dövlət başçımızın Rusiya Federasiyasının Sankt-Peterburq şəhərinə işgüzar səfəri dekabrın 26-da başa çatıb.***

***Dekabrın 27-də Azərbaycan Prezidenti İlham Əliyev Kvartalda görülən işlərlə tanış olub, Bakı Ağ Şəhər Qarabağ Atları Kompleksinin təməlini qoyub.***

# Beynəlxalq elmi-praktik konfrans keçirilib

***Dekabrın 27-də DİN-in Polis Akademiyasında Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 74 illiyinə həsr olunan “Müasir dövrdə insan hüquqlarının təminatının aktual problemləri” mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilib.***

Tədbirdə BMT-nin İnsan Hüquqları Ali Komissarlığının, Beynəlxalq Qızıl Xaç Komitəsinin, Azərbaycan Respublikasının Milli Məclisinin, Azərbaycan Respublikası Ombudsman Aparatının, Konstitusiya Məhkəməsinin, eləcə də respublikamızın bir sıra dövlət qurumlarının və ali təhsil müəssisələrinin nümayəndələri iştirak ediblər. Beynəlxalq elmi-praktik konfransa Türkiyədən, Rusiyadan, Belarusdan və Qazaxıstandan da onlayn formatda mütəxəssislər qatılıblar.

Tədbir iştirakçıları əvvəlcə ulu öndərin abidəsi önünə gül dəstələri qoyublar. Ümummilli liderin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.

Konfransı giriş sözü ilə açan Azərbaycan Respublikası daxili işlər nazirinin müavini, polis general-leytenantı İsmət Əliyev insan hüquq və azadlıqlarının daxili işlər orqanlarının fəaliyyətində mühüm əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb.






Daha sonra Azərbaycan Respublikası Milli Məclisinin Sədrinin birinci müavini, Hüquq Siyasəti və Dövlət Quruculuğu Komitəsinin sədri Əli Hüseynli, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili Səbinə Əliyeva, Dövlət Gömrük Komitəsinin Akademiyasının rəisi, gömrük xidməti general-mayoru Qulu Novruzov, Türkiyə Respublikasının Təhlükəsizlik Elmləri İnstitutunun direktor müavini, dosent doktor Mustafa Yayla, Belarus Respublikası DİN-in Mogilyov İnstitutunun rəisi, milis general-mayoru Valeriy Polişuk, Rusiya Federasiyası DİN-in Rostov Hüquq İnstitutunun rəis müavini, polis polkovniki Sergey Paxomov, Azərbaycan Məhkəmə Hakimləri Assosiasiyaları İttifaqının sədri Ələddin Cəfərov, Dövlət Təhlükəsizlik Xidmətinin Heydər Əliyev adına Akademiyasının rəisinin birinci müavini, polkovnik-leytenant Elşad Nəsirov, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin İnsan Hüquqları və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi, professor Aynur Sabitova çıxış ediblər.

Fasilədən sonra mövzu ətrafında yerli və xarici iştirakçıların təqdimatları dinlənilib. Çıxış və müzakirələrdə Akademiyanın kursantları da fəallıqları ilə seçiliblər.

Konfransın yekununda insan hüquq və azadlıqlarının təmin olunmasının müasir və demokratik ölkələrin əsas hədəflərindən biri olduğu vurğulanıb, Bəyannamə oxunub, iştirakçılara nəfis şəkildə çap olunmuş konfrans materialları, “İnsan hüquqları” adlı dərs vəsaiti, sertifikatlar və hədiyyələr təqdim olunub.

*"Polis"*

# Gələcəyi əmin əllərə təslim edək



Antinarkotik tədbirləri çərçivəsində S.C.Pişəvəri adına Respublika Humanitar Fənlər Gimnaziyasında müəllim-şagird kollektivinin, Nərimanov RPİ əməkdaşlarının və polis veteranlarının iştirakı ilə “Narkomaniyaya yox deyək!” adlı maarifləndirici görüş keçirilib.

**Gimnaziyanın direktoru İlqar Talıbov** giriş sözü ilə çıxış edərək polis əməkdaşlarının narkomaniya ilə mübarizədə sərgilədikləri əzmkarlıq və qətiyyətdən danışıb, polis-məktəb-valideyn həmrəyliyindən bəhs edib.

**Daha sonra Nərimanov RPİ-nin rəisi, polis polkovniki Vaqif Müslümov** narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı keçirilən əməliyyat tədbirlərindən söhbət açıb. “Ağ ölüm” adlı qlobal bəlaya qarşı ölkəmizdə həm dövlətin aidiyyəti güc strukturları, həm də digər dövlət qurumları ilə birlikdə aparılan mübarizənin müsbət nəticə verdiyini deyən idarə rəisi, cari ildə təkcə Nərimanov rayonu üzrə 50 kiloqramdan artıq narkotik vasitənin qanunsuz dövriyyədən çıxarıldığını, 260-dan çox şəxsin cinayət məsuliyyətinə cəlb edildiyini qeyd edib.

Narkomaniyaya qarşı aparılan genişmiqyaslı maarifləndirici tədbirlərin əhəmiyyətinə də toxunan V.Müslümov şagirdlərə narkotik aludəçisinə çevrilmiş şəxslərdən uzaq durmağı, qarşılaşdıqları belə hallar olduqda valideynlərinə və müəllimlərinə, eləcə də polisə məlumat vermələrini tövsiyə edib.

DİN Mətbuat Xidmətinin rəis müavini, polis polkovnik-leytenantı Hafiz Təmirov polis əməkdaşlarının qanunsuz dövriyyədən çıxardıqları hər qram narkotik vasitənin ilk növbədə çoxsaylı cinayətlərin qarşısının alınması, digər tərəfdən isə neçə-neçə gəncin, ailələrin qorunması anlamına gəldiyini söyləyib. Polisin əməliyyat tədbirlərinin güclü ictimai dəstək gördüyünü, eyni zamanda, maarifləndirici görüşlərin geniş vüsət almasının cəmiyyətdə təqdir edildiyini yada salan rəis müavini, birgə mübarizə sayəsində bəşəriyyətin düşməni narkomaniyanın, nəhayət, məğlub ediləcəyinə inamını ifadə edib.



Tədbir zamanı 17-ci Polis Şöbəsinin YYÇ üzrə inspektorları, polis kapitanı Emin Zeynalov, polis leytenantı Könül Yusibova və polis leytenantı Xəlil Hüseynov gimnaziyada mütəmadi ünsiyyətdə olduqları məktəblilərin uğurlarından söz açıblar. Qeyd edilib ki, Elm və Təhsil Nazirliyinin dəstəyi ilə Bakı Ekspo Mərkəzində keçirilən “Beynəlxalq STEAM Azərbaycan Festivalı 2022”-də gimnaziyanın IX sinif şagirdləri Fatih Emçiyev və Araz Çıraqovun qatıldığı "RoboForce" komandası "VEX İQ" kateqoriyasında birinci yeri, bundan başqa, "Best of the Best" - "Yaxşıların yaxşısı" nominasiyasını qazanıblar. 9b sinif şagirdi Hacı Bəbirov da fərqlənən məktəblilərdəndir.

Sonda iştirakçıları maraqlandıran sualları cavablandıran polis əməkdaşları belə şagirdlərin timsalında gələcəyimizin əmin əllərə təslim ediləcəyini vurğulayıblar.

*"Polis"*



# Sığınacaqdakı uşaqlarla birlikdə

**Sabunçu RPİ-nin əməkdaşları Yeni il ərəfəsində sığınacaqda qalan uşaqları sevindiriblər. “Nur Uşaq Evi”nə baş çəkən həmkarlarımız bayram şənliyini onlarla keçiriblər.**



Polis İdarəsinin şəxsi heyətinin adından şənliyə qatılan Sabunçu RPİ-nin rəis müavini, polis polkovniki Sədi İsmayılov və Yetkinlik yaşına çatmayanlarla profilaktiki işin təşkili bölməsinin rəisi, polis kapitanı Ata Atayev uşaqları təbrik edərək, qanun keşikçilərinin hər zaman onların yanında olduğunu, bundan sonra da istənilən çətinliyin aradan qaldırılmasında polisə arxalana biləcəklərini bildiriblər.

Bayramla bağlı şeirlər, mahnılar oxuyan uşaqlar öz bilik və bacarıqlarını nümayiş etdiriblər.

Daha sonra uşaqlara bayram sovqatları verilib.

Sığınacağın rəhbəri Aynurə Xudiyeva uşaqları unutmayan, daima onların hüquqlarının, təhlükəsizliklərinin qayğısına qalan polis əməkdaşlarına təşəkkür edib.

❖❖❖

Şirvanda da polislər bayram ərəfəsində fidanların qonağı olublar. Şirvan Şəhər Polis Şöbəsinin əməkdaşları Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə şəhər ərazisində yerləşən "Mərhəmət evi" uşaq sığınacağını ziyarət ediblər.

Öz qonaqlarını gülərüzlə qarşılayan körpələr şöbə əməkdaşlarına şeirlər səsləndirib, nəğmələr oxuyublar. Həmkarlarımız balaca fidanlara qarşıdan gələn bayram münasibətilə təbriklərini çatdırıb, onları hədiyyələrlə sevindiriblər. Görüşdə balacalarla əyləncəli oyunlar oynanılıb, xatirə şəkilləri çəkdirilib.

Sonda sığınacağın rəhbərliyi körpələrə göstərilən diqqət və qayğıya görə Azərbaycan Polisinə öz minnətdarlığını bildirib.

# Polis övladlarının bayramı





DİN Maddi-Texniki Təminat Baş İdarəsinin 2 saylı uşaq bağçasının kollektivi Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə şənlik keçirib.

Valideynlərin də iştirak etdiyi tədbirdə çıxış edən bağça müdiri Sevinc Məmmədəliyeva hər iki əlamətdar gün münasibəti ilə uşaqları təbrik edib. O, müəssisədə tərbiyə alan polis övladlarını əsl vətəndaş kimi yetişdirməyə çalışdıqlarını, bunun üçün onlara ölkəmizin və xalqımızın bütövlüyü naminə canından keçmiş şəhidlərin qəhrəmanlıqlarından bəhs edildiyini, vətənpərvər ruhda tərbiyə aldıqlarını diqqətə çatdırıb.

Daha sonra şənliyə uşaq dünyasının sevimli personajları Şaxta baba və Qar qız dəvət olunub.

Uşaqların sevinclə qarşıladıqları personajlar rəngarəng işıqlarla bəzədilmiş küknar ağacının ətrafında əyləncəli oyunlar təşkil ediblər. Şeirlər və mahnılar oxuyub, rəqs edən körpələrin hazırladıqları müxtəlif səhnəciklər mərasimə xüsusi rəng qatıb və tamaşaçılar tərəfindən böyük maraqla qarşılanıb.

Sonda azyaşlılara bayram sovqatları verilib.

*“Polis”*

# Polis məhəllədə görüşlər keçirir

Sabunçu RPİ Yetkinlik yaşına çatmayanlarla profilaktik işin təşkili bölməsinin əməkdaşları narkomaniya ilə mübarizə məqsədilə məhəllələrdə görüşləri davam etdirirlər.

Rayon ərazisindəki parklarda, məktəblərin ətrafında, həyətlərdə sakinlərlə, xüsusən, yeniyetmələrlə maarifləndirici söhbətlər aparan polis əməkdaşları narkotik maddələrin insan





orqanizmində və cəmiyyətdə yaratdığı fəsadlardan danışıblar. Gənclərə diqqətlərini təhsilə yönəltmələrini və hüquqazidd əməllərdən çəkinməyi tövsiyə edən həmkarlarımız onları maraqlandıran sualları cavablandırıblar.

Maarifləndirici aksiyanın gənclərin qorunmasında əhəmiyyətli olduğunu deyən rayon sakinləri polisin bu istiqamətdəki fəaliyyətini təqdir ediblər.

*Rəşad Mehtiyev*

# Vətəndaşlara dəymiş maddi ziyan ödətdirilib

**Pirallahı rayon qəsəbə sakini Samirə Əliyevaya qarşı dələduzluq etməklə ona maddi ziyan vuran Hüseyn adlı şəxs Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən saxlanılıb.**

Araşdırma zamanı məlum olub ki, zərərçəkmiş “İnstagram”dan tanıdığı, özünü “Reomed” klinikasının estetik əməliyyat həkimi Rəşadın köməkçisi kimi qələmə verən Hüseynə burun əməliyyatına tətbiq olunan kampaniyadan yararlanmaq istədiyini bildirib. Əməliyyat üçün nəzərdə tutulan 685 manatı əvvəlcədən razılaşdıqları formada “köməkçinin” bank kartına onlayn qaydada ödəyib. Bir müddət sonra həmin klinikada burun əməliyyatı keçirən Samirə yenidən əməliyyat üçün nəzərdə tutulan məbləği ödəməli olub. Bu zaman o, adıçəkilən şəxsin orada işləmədiyini və onun tərəfindən aldadıldığını başa düşüb.

Pirallahı RPİ-nin baş müstəntiqi, polis mayoru Pərviz Əsədzadədən aldığımız məlumata görə, dindirilmə zamanı o da bəlli olub ki, dələduzluq əməlini törədən Hüseyn Lənkəran rayonunda anadan olan, Sabunçu rayonun Pirşağı qəsəbəsində müvəqqəti yaşayan, işləməyən Kəlbihüseyn Aboşovdur.

S.Əliyevaya dəymiş maddi ziyan tam ödətdirilərək vətəndaş məmnunluğu təmin olunub.

❖❖❖

**Dələduzluğa məruz qalmış daha bir vətəndaşın hüquqları Sabunçu Rayon Polis İdarəsi İstintaq Şöbəsi əməkdaşları tərəfindən bərpa olunub və ona dəymiş küllü miqdarda maddi ziyan ödətdirilib.** Belə ki, saxlanılan Bakı şəhər sakini Natiq Əliyev özgənin əmlakını ələ keçirmək üçün Sabunçu Rayon İcra Hakimiyyəti başçısının müvafiq sərəncamı ilə imtiyazlı əsaslarla yaşayış yeri üzrə mənzil növbəsinə qəbul olunmuş III qrup “Vətən müharibəsi” əlili Kənan Seyidova verilməsi nəzərdə tutulmuş birotaqlı mənzili Ramana qəsəbəsi Südçülük Sovxozu ərazisində tikiləcək binadan üçotaqlı mənzilə dəyişdirəcəyinə sonuncunun atası Vüqarı inandıraraq yalan vədlər verib və göstərəcəyi köməklik qarşılığında aralarında razılaşdıqları formada ondan 3 min manat alıb.

Vətəndaş V.Seyidov dələduzluğa məruz qaldığını bilərək polisə müraciət edib.

Sabunçu RPİ İstintaq Şöbəsində təqsirləndirilən N.Əliyev törətdiyi əməli etiraf edib. Onun barəsində başlanılan cinayət işi rayon Prokurorluğuna göndərilib.

*Teymur Əlizadə, polis mayoru*



# Mötəbər günün qalibləri

***Dekabrın 23-24-də DİN İdman Cəmiyyətində Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin doğum gününə həsr olunmuş daxili işlər orqanları və hissələri arasında Cüdo üzrə yarış keçirilib.***

Əvvəlcə şəhidlərimizin əziz xatirəsi anılıb, dövlət himnimiz səsləndirilib.

Sonra dövlət başçımızı doğum günü münasibətilə təbrik edən DİN İdman Cəmiyyətinin sədri, polis polkovniki Zemfira Meftaxətdinova iştirakçılara ölkəmizdə idmanın yüksələn xətlə inkişaf etdiyini, bu sahənin dövlət siyasətinin prioritetlərindən birinə çevrildiyini, Azərbaycanın beynəlxalq aləmdə idman ölkəsi kimi tanındığını vurğulayıb. O, daxili işlər orqanlarının sıralarında xidmət edən idmançıların beynəlxalq miqyaslı yarışlarda qazandıqları parlaq qələbələrindən danışıb, həmçinin başa çatmaqda olan ilin İdman Cəmiyyəti üçün də uğurlu olduğunu deyib. Sədr polis idmançıların həm ölkədaxili yarışlarda, həm də beynəlxalq arenalarda ümidləri doğrultduğunu da qeyd edib, yarış iştirakçılarına uğurlar arzulayıb.

Daha sonra yarışa start verilib.

Yarışda Bakı Şəhər Baş Polis İdarəsi, İdman Cəmiyyəti, DİN Baş Mühafizə İdarəsi, Nəqliyyatda Baş Polis İdarəsi, Daxili Qoşunların Baş İdarəsi, Əlahiddə Çevik Polis Alayı, Polis Akademiyası, Diplomatik Nümayəndəliklərin Mühafizəsi üzrə Əlahiddə Polis Taboru, Sumqayıt Şəhər Polis İdarəsi olmaqla, 9 komandadan 68 idmançı-əməkdaş iştirak edib.

Yarışın yekunlarına görə komanda üzrə DİN-in ƏÇPA-nın komandası I, Polis Akademiyasının komandası II, BMİ-nin komandası III yerə layiq görülüb.

Şəxsi birincilikdə isə 60 kiloqram çəki dərəcəsində gücünü sınayan kursant M. Bilallı, 66 kiloqram çəkidə BMİ-nin əməkdaşı, polis serjantı T.Zalov, 73 kiloqram çəkidə kursant İ.Mehrəliyev, 81 kiloqram çəkidə ƏÇPA-nın əməkdaşı, polis baş serjantı A.Fətullayev, 90 kiloqram çəkidə ƏÇPA-nın əməkdaşı, polis mayoru H.Çəbiyev, 100 kiloqram çəkidə ƏÇPA-nın əməkdaşı, polis sıravisi M.Mehdiyev fəxri kürsünün ən yüksək pilləsində qərarlaşıblar.

Sonda qaliblərə medalları və diplomları Bakı Şəhər Baş Polis İdarəsinin rəis müavini, polis general-mayoru Sərdar Səfərov və polis polkovniki Zemfira Meftaxətdinova təqdim ediblər.

*Ruhiyyə Əliyeva, polis kapitanı*

# Həmkarımız ilin idmançısı seçilib





Dekabrın 21-dən 23-dək Ağır Atletika Akademiyasında Azərbaycan kuboku uğrunda yarış keçirilib. Ən güclü atletlərin təmsil olunduğu turnirdə Əlahiddə Çevik Polis Alayının əməkdaşı, polis baş leytenantı Dadaş Dadaşbəyli də qüvvəsini sınayıb.

O, 109 kiloqram çəki dərəcəsində rəqiblərini geridə qoyaraq Azərbaycan kubokunun sahibi olub. Birdən qaldırma növündə 165, təkanla qaldırmada 195 kiloqram qaldırmaqla normativləri yerinə yetirən D.Dadaşbəyli ümumilikdə aktivinə 393.93 xal yazdırıb. O, göstərdiyi nəticəyə görə həm də ilin ən yaxşı idmançısı adına layiq görülüb.

Qalib həmkarımız münsiflər tərəfindən medal, diplom və kubokla mükafatlandırılıb.

Qeyd edək ki, çempionumuz 2019-cu ilin dekabrından daxili işlər orqanlarında xidmətdədir.

*T.Əlizadə*

# Uşağın imdadına polis çatdı

Binəqədi rayonunda 13 yaşlı uşaq ögey atası tərəfindən fiziki zorakılığa məruz qalıb. Bu barədə Rayon İcra Hakimiyyətinin müvafiq komissiyasına uşağın özü xəbər verib, komissiya isə polisi məlumatlandırıb. Ögey atısının onu və xəstə anasını mütəmadi olaraq döydüyünü iddia edən uşağın yaşadığı ünvanı dəqiqləşdirmək üçün polis əməkdaşları axtarışlara başlayıblar.



Binəqədi RPİ 4-cü PŞ-nin sahə inspektoru, polis mayoru Ruhin İbrahimov qəzetimizə bildirib ki, rayon ərazisində müxtəlif ünvanlarda kirayədə yaşayan ailə tez-tez yerini dəyişib, bu da uşağı tapmağı çətinləşdirib. Ancaq axtarışlar nəticə verib və həmkarlarımız İcra Hakimiyyətinin, qeyri-hökumət təşkilatının nümayəndəsi ilə birlikdə ailənin yaşadığı mənzilə baş çəkiblər. Aparılan söhbətdən sonra uşağın sözləri özünü doğruldub.

Bu barədə “Polisə” danışan sahə inspektoru deyib ki, yeniyetmənin üzərində zorakılıq izləri aşkar görünür, bundan əlavə, tibbi ekspertiza da döyülmə faktını təsdiq edib. Hazırda atanın əməlinə hüquqi qiymət verilməsi üçün 4-cü PŞ-də təhqiqat aparılır. Uşaqla anası isə İcra Hakimiyyəti və qeyri-hökumət təşkilatının nümayəndələrinin nəzarətindədir.

*R.Mehtiyev*

# Həmkarımız yenə ZİRVƏDƏDİR




Dekabırın 17-də Rusiyanın Suzdal şəhərində keçirilən pauerlifting üzrə dünya çempionatında 230 kiloqram ağırlıq qaldıran həmkarımız - Baş Dövlət Yol Polis İdarəsinin YPXA-nın Qərargahının baş inspektoru, polis kapitanı Famil Məhərrəmov qalib olub. O, 25 ölkənin idmançılarının iştirak etdiyi yarışda bütün rəqiblərini üstələyərək dünya çempionu adını qazanıb.

Qeyd edək ki, F.Məhərrəmov buna qədər də ağırlıqqaldırma üzrə yarışlarda dəfələrlə fərqlənib. O, ABŞ-ın Orlando şəhərində və Finlandiyada keçirilən dünya çempionatlarında hamıdan güclü olduğunu sübut edib. Həmkarımız 3 qat Avropa, 4 qat Respublika çempionu, 3 dəfə isə ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş beynəlxalq turnirlərin qalibidir.

Dünya arenalarında üçrəngli bayrağımızı dalğalandıran, dövlət himnimizi qürurla səsləndirən çempionumuza bundan sonra da uğurlar arzulayırıq.

*Ruhiyyə Əliyeva,*
*polis kapitanı*

# BİZƏ YAZIRLAR...



Məlum olduğu kimi, son günlər Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan ərazilərdə təbii sərvətlərimizin talanmasına, xüsusilə Qızılbulaqda qızıl və Dəmirlidə mis-molibden yataqlarının qanunsuz istismarına, eləcə də Qarabağ iqtisadi rayonunda ekoloji terrora etiraz olaraq ekofəallar və qeyri-hökumət təşkilatlarının təmsilçiləri Laçın-Xankəndi yolunun bir hissəsində dinc aksiya keçirirlər.

Aksiya iştirakçılarının təhlükəsizliyi Daxili İşlər Nazirliyinin hərbi qulluqçuları və polis əməkdaşları tərəfindən tam təmin olunur. Təhlükəsizliyin layiqincə qorunması aksiya iştirakçıları tərəfindən minnətdarlıqla qarşılanır. Fəallar tərəfindən aksiyada DİN-in hərbi qulluqçularının və polis əməkdaşlarının ünvanına səsləndirilən şüarlar ictimai rəğbətin və onların fəaliyyətinin müsbət qiymətləndirilməsinin göstəricisidir.

Belə ki, sosisal şəbəkə istifadəçisi Abuzər Cəfərli DİN-ə ünvanladığı təşəkkür məktubunda Daxili Qoşunların hərbi qulluqçularının Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonalarına daxil olan şəhər və rayonlarımızda polis əməkdaşları ilə birgə ayıq-sayıq xidmətindən razılıq edir və onlara həvalə edilən vəzifələri peşəkarlıqla yerinə yetirdiklərinə, təhlükəsizliyi layiqli təmin etdiklərinə görə minnətdarlığını ifadə edir.

*R.Əliyeva*

# QATİL YAZIÇI

## Hər cinayətin bir hekayəsi var

2000-ci ilin dekabrında Polşanın Vrotslav şəhəri yaxınlığında Oder çayında balıqçılar iş adamı Dariuş Yanişevskinin cəsədini aşkar edirlər.

Qatil işini ustalıqla görmüşdü. O, heç bir iz buraxmamışdı. Aparılan uzunmüddətli istintaq nəticə vermir, çünki polis qatilin şəxsiyyətini müəyyənləşdirməkdə çətinlik çəkirdi. Bu isə cəmiyyətdə cinayətkarın tapılacağına inam hissini hər keçən gün azaldırdı.

Məsələ onda idi ki, uğurlu iş adamı və olduqca istiqanlı şəxs kimi tanınan D.Yanişevskinin gözlə görünən düşmənləri yox idi. Onun öldürülməsi ilə bağlı müxtəlif versiyalar dolaşırdı. Qətl hadisəsindən sonra televiziyalara və istintaqa anonim məktublar göndərilir, cinayətin izləri müxtəlif istiqamətlərə yönəldirilirdi. Və bir gün naməlum şəxsin polisə zəng edərək Kristian Balanın 2003-cü ildə nəşr olunan "Quduzluq" (Amok) romanını oxumalarını tövsiyə etməsi işin axarını dəyişir...

Bu məlumat hüquq mühafizə orqanlarının uğursuzluqlarından sonra araşdırmalara qoşulan peşəkar əməliyyatçı Jacek Vrablevskinin diqqətini çəkməyə kifayət edir. "Quduzluq" romanını dəfələrlə oxuyan Vrablevskiy əsərdəki bəzi "təsadüflərin" heç də təsadüfi olmadığı qənaətinə gəlir. Kitab ona daha çox cinayət hesabatı kimi görünürdü. Qətl çox təfərrüatlı təsvir edilmişdi, cinayətin motivi də hardasa üst-üstə düşürdü. Əsərin qəhrəmanı da həyat yoldaşından boşanır, içki alüdəçisidir, fəlsəfəni sevir və dünyanı gəzirdi.

Polis hesab edir ki, keçmiş həyat yoldaşının dostu Dariuş Yanişevskini vəhşicəsinə qətlə yetirən məhz Baladır.

İstintaq Balanın həyat hekayəsini araşdırır. Məlum olur ki, yazıçı həyat yoldaşını Dariuş Yanişevskiyə qısqanırmış və onu təqib edirmiş.



Dariuşu iş yerindən qaçıran Bala onu anbarda "həbs edərək" 4 gün işgəncə verir. Buna baxmayaraq, Dariuş yazıçının arvadı ilə əlaqələrinin olmasını qətiyyətlə rədd edir. Bala deyilənlərə və onun yalvarışlarına inanmır, aclıqdan və çoxlu qan itkisindən ölmək




üzrə olan iş adamını əl-ayağı bağlı vəziyyətdə yaxınlıqdakı gölə atır.

Cinayətkarın izinə düşən əməliyyatçılar, polisə anonim məktublar göndərənin də məhz Bala olduğu qənaətinə gəlirlər. Yazıçının həmin məsajları Cənubi Koreya və İndoneziyadan dalğıclıqla məşğul olduğu zamanlarda ünvanladığı üzə çıxır. Nə qədər qəribə səslənsə də məktubları yazmaqla əsas məqsədi "Quduzluq" adlı romanının oxunmasına bu yolla diqqət çəkmək imiş...

Qətldə ittiham edilən Bala polisin ona iftira atdığını, təqsirsizliyini sübut etmək üçün yalan detektorundan keçməyə hazır olduğunu bildirir. O, testdən uğurla keçsə də, məhkəmə prosesi zamanı yazıçının test qeydləri deşifrə olunur. Mütəxəssislər dalğıclıqla məşğul olan yazıçının sınaq zamanı detektora cavab verərkən sakit qalmağa imkan verən xüsusi nəfəs texnikasından istifadə etdiyini sübuta yetirməyə çalışırlar.

Keçmiş həyat yoldaşı proses zamanı ondan boşanma səbəblərindən danışarkən Balanı hər şeyə nəzarət etməyə çalışan bir insan kimi qələmə verir. Onun sözlərinə görə, boşandıqdan sonra da yazıçı qadının sosial çevrəsini məhdudlaşdırmağa çalışıb. İstintaq bu nüansı da qətlin motivi kimi görür.

Təqsirləndirilən şəxs müdafiə çıxışında romanının süjet xəttinin törədilmiş cinayətlə üst-üstə düşməsinin sırf təsadüfi olduğuna polisi inandırmaq istəyir. "Quduzluq" ədəbi əsərdir. Əsərin məzmunu narkotikdə və spirtli içkidə təsəlli axtaran ziyalının yaşadıqlarından bəhs edir. Üslub və süjet xətti çox inandırıcı şəkildə qələmə alınsa da, bu, yalnız təxəyyül məhsuludur.

Son söz söyləyən Kristian Bala məhkəmədə bütün ittihamları rədd edərək romanını qətldən ilhamlanaraq yazdığını deyir. Yazıçı haqqında məhkəmədə ittihamçı ona 25 il həbs istəsə də, müdafiə tərəfi sübutların yetərli olmadığını iddia edib. Kristian Bala 20 dekabr 2007-ci ildə azadlığa buraxılıb. Lakin sonradan Dariuşun Balanın həyat yoldaşı ilə münasibətdə olduğuna dair sübutlar ortaya çıxanda Kristian 2009-cu ildə Apellyasiya Məhkəməsi tərəfindən həbs cəzasına məhkum edilir. Polşa Ali Məhkəməsi qərarı təsdiqləyir.

Səyyah, jurnalist və yazıçı Bala cəzadan qaça bilməsə də, əsas məqsədinə çatır. 25 il həbs cəzası alan qatil yazıçının romanı bestller kimi həm Polşada, həm də dünyada bu gün də maraqla ən çox oxunan detektivlər sırasındadır.

*Tərcümə etdi:*
*Ruslan Vəliyev*

# Mükafatlı sual rubrikası



O, türk tarixinə möhür vuran böyük bir imperiyaya hökmranlıq etmiş sultanların atabəyi və baş vəziri olub. Dövlətin iqtisadi qüdrətinin artırılmasında, qoşunun möhkəmlənməsində, ölkənin mədəni həyatının inkişafında əhəmiyyətli rol oynayıb. Vəzirlik dönəmində Sultanın istəyi ilə qələmə aldığı əsər bügünümüzə miras qalmış ən mötəbər ədəbi-tarixi abidələrdəndir. Sözügedən əsərdə Türk-İslam dövlətinin idarə sistemi, vergi qaydaları, hərbi quruluşu, təhsili, mədəniyyəti və bir sıra qayda qanunları barədə məlumat verilir.

Söhbət kimdən və hansı əsərdən gedir? Sualı ilk cavablandıran oxucumuz redaksiya tərəfindən ən qiymətli mükafatla-kitabla mükafatlandırılacaq.

**Vatsap:**
**+99455-875-16-39**

# ƏMƏLİYYAT UĞURLA NƏTİCƏLƏNDİ

Bakı şəhər sakini olan bir qadının bank hesabından 2 min manatının oğurlanması barədə polisə məlumat daxil olub.

**Nizami RPİ-nin 24-cü Polis Şöbəsi** əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində oğurluq əməlində şübhəli bilinən Naxçıvan şəhər sakini T.Əliyev müəyyən olunaraq saxlanılıb.

◆◆◆

Sumqayıt şəhər sakininin itirdiyi bank kartından 390 manatının oğurlanması barədə polisə məlumat daxil olub.

**Sumqayıt ŞPİ-nin 4-cü Polis Bölməsi** əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində oğurluq əməlində şübhəli bilinən şəhər sakini, əvvəllər narkotiklərlə əlaqəli cinayətə görə məhkum olunmuş E.Musayev müəyyən olunaraq saxlanılıb. Şəxsi axtarış zamanı ondan metamfetamin aşkar olunaraq götürülüb.

◆◆◆

Suraxanı rayonunun Əmircan qəsəbəsində yerləşən bir şirkətin ərazisindən 4600 manat dəyərində 340 metr elektrik kabelinin oğurlanması barədə polisə məlumat daxil olub.

**Suraxanı RPİ-nin 31-ci Polis Bölməsi** əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində oğurluğu törətməkdə şübhəli bilinən Bakı şəhər sakinləri E.Baloğlanov və V.Tahirov saxlanılıblar.

# STATİSTİKA

## Kriminal icmal

- Dekabrın 21-dən 28-dək olan müddət ərzində - ölkə ərazisində qeydə alınan 251, əvvəlki dövrlərdən bağlı qalan 63 cinayətin açılması daxili işlər orqanlarının əməkdaşları tərəfindən təmin olunub.
- Axtarışda olduğuna görə ümumilikdə 518, o cümlədən borclu şəxs qismində axtarışda olan 406 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.
- Respublikanın avtomobil yollarında ölümlə nəticələnən 17 yol-nəqliyyat hadisəsi baş verib, nəticədə 20 nəfər ölüb, 6 nəfər isə xəsarət alıb.
- Narkotiklərlə əlaqəli 87, qanunsuz saxlanılan silah-sursatın götürülməsi və aşkarlanması ilə bağlı 16 fakt müəyyən edilib.

*Natiq Cavadov*

POLİS
qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR:
HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10009
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 18:30
Qiyməti 40 qəpik